Məmməd QİYEV

filologiya elmləri doktoru, professor

Xatirələrdə yaşayan insan

İlk dəfə onun adını tələbə olduğumuz zaman "Qədim və Orta əsrlər dövrü Azərbaycan ədəbiyyatı" fənnindən dərs dediyi müəllimimiz ilmən Babayevdən eşitdik. Mohammed Füzulinin yaradıcılığından danışanda, O dövrdə xeyli gənc oldüğumüzdan Füzulinin dilinə o qədər də uyuşmadığımız, şeiriyyət sirlərini dərindən bələd olmadığımız, hətta bəzi düşmədiyimiz bir xoşagəlməz kimi yadına düşürdü ki, bu nəhəng şair usanılan yaradıcılığının todqiq edən əllərimin adını yadda saxlasın... Lakin illər keçə gəlib keçdi, zaman dəyişdi. Bu zaman dəyişməsində bizim "payımıza düşən" prof. M.Quluzadənin, akad.M.C.Cəfərovun, akad.H.Araslının, akad.M.A.Dadaşzadənin, akad.M.Şirəliyevin, akad.M.İbrahimovun, akad.K.Talıbzadənin və b. tanınmış, onların mənəvi dünyasının yaxın olmaq, təsəllimizi davam etdirmək oldu. Həmin illərdə sazı ağarmış, gözlərinin altı qaralmış, bir qədər də yorğun görünən insan gördük elə bildirdi ki, sanki bu insanlar sənlərin o üzündən adlayaraq dörvüzünüzə gəlib çatmışlar. 60, 70, 75 yaşlı qüsursuz alim gördüyümüz adamın ələqamaz zirvədə dayandığımızı fikirləşərdim... Son demo, 30-35 yaşlı gəncik 60-65 yaşlı insan arasındkı zaman məsafəsini çox sezm deyilmiş. Arzusu, hovsulu qalaq-qalaq yığılan, yazıb-yaratmaq ehtirası bitib-tükənmayan bir alim üçün 70-75 yaş cox az imiş.

İnstitutu bitirməyimdən bir neçə ay keçmişdi ki, bir gün iş otağımda qəzetlərlo nəzəq oflarkən Yazıçılar sədrə Ədəbiyyat və Dil İnstitutunun aspirantnaxsına qəbul elanını oxudum. Aspirantnaxda oxumaq, təhsilimi davam etdirmək məsələsi mn ilmdə ərzun idi. Odur ki, institutda oxudğum illərdə gəcə-gündüz yazıb-oxumuş, sayılıb-seçilən tələbələrdən biri olmuşdum. Dörd il şəklim "Şərəf lövhəsi"nin yuxarı hissəsindən əskik yerini qoruyub saxlamışdı. Toyinatım da əcsə İnstitutda müəllim işləməyin üçün verilmiş, lakin kiminsə hədsiləlığı ucbatından onrim veriləmmişdi... Bir neçə ay şüzi qalsam da, dünya xeyirxah insanlardan xali deyilmiş. Elə bəzi dəfə mürəxxəs edəsəm tezcə rospublika ali və orta ixtisas təhsili nazir tayin olilmiş Danil Quliyevlə söhbət-də mənim dəmgahım nazirin xoşuna gəldiyindən onun "gol mənim yanımda işlə" təklifi ilə dərhal razılaşdım. Birbaşa, təbiə partısı arxasından nazirliyə mühüm vəzifəyə toyin olundum. Hey kim bunu gözlərmədi. Lakin aspirantnaxda oxumaq arzusu mənə rahat buraxmadı. Sonodlərimi qaydaya salıb institutun elmi katibinə verdim. Mart ayının ovvəlarında ilk imtahana gələndə öyrəndim ki, elanda göstərilən 1 yero qarşı 17-18 nəfər gənc orizo verib və bunlardan 5-6 nəfəri mənimlə oxuyan nəzzarət idi. İxtisas imtahanı direktorun kabinetində şpardılı. Onda bildim ki, prof. M.Quluzadə İnstitutun direktorudur.

Onun sağ tərəfində akad. M.İbrahimov, sol tərəfində akad. M.C.Cəfərov, prof. K.Talıbzadə, prof. Ə.Mirəhmədov, sol tərəfdə akad. H.Araslı, prof. M.H.Təhmasib, prof. K.Məmmədov, şair Q.Qasımzadə, prof. M.Seyidov və başqaları sturmuşdular. İmtahan başlamışdı ki, akad. M.A.Dadaşzadə (o vitse-prezident idi) içəri girib M.İbrahimovun yanında oturdu. O vaxt aspirantnaya qəbula çox böyük məsuliyyətlə yanaşır, cidi fikir verirdilər. Növbə mənə çatdı, əl uzadıb bilətlərdən birini götürdüm. Suallar tanış idi: XIX əsrin folklorşünaslığın yanmasi və mövzusu əsrəyyəlar, 2-ci sualım "Kitabi-Dədə Qorqud" dastanında hoca vəzifi sözünün işlənməsi, 3-cü Orta əsr Azərbaycan xalq dastanları idi. Birinci suala ətrafla danışdım, mövzuda nəzəriyyələri, onlara görkəmli nümayəndələri haqqında ərəfmadəri elan etsinlər. 18 nəfər imtahan verəndən cəmisi iki nəfəri 4 (yaxşı) qiymət almışdı. Mənim adım çəkən olmadı, bərk pərt oldum, nə danışdım, necə danışdım ilə yadımda qalmamışdı. Fikirləşdim ki, deyəsən, burada da işim düz gəlməzdi. Bu vaxt Mirzağa Quluzadə dillondi:

-Hə, oğlum, yaqin ki, sənin atan bizim köhnə ziyalılarımızdandır. Ədəbiyyatçıdır, ya dilçi?

Mən cavab verdim ki, professor. atam ikinci işçisi olub. O da onun 4 yaşında olanda əvəzsiz gözsanda kolak olub. Kişinin sanki gözləri bö-yüdü. Mirzağa müəllim yeno sual vermək istəyirdi ki, H.Araslı ona nə-so dedi. Mirzağa müəllimin çöhrəsində işıqlı və mülayim bir ifadə yarıdı gəldi. Sonra mono buxdı:

- Biz tüsyirik ki, səni yaxından tanıyaq, hamının qoti fikri budur ki, aspirantnaxdo yeri sono vərək, biliyini "ola"ya layiq bilmişik, institutx lazım olsaqsan. M.İbrahimov ixtiraç gölünsüyərək yüngülcə başını tərpədi. Bu vaxt, nəhayət ki, prof. M.Təhmasib xoşlüklə monim haqqında bir neçə söz dedi.

- O, imtixnda yaxşı oxuyurdu.

Akad. M.Arif susila dolu nəzərlə monə baxsa da, boy bir söz demədi. Mon hemin gün prof. M.Quluzadənin no qədər böyük hörmət-izzət sahibi olduğunu gördüm. Onnadəkslərin çoxu akademik olsa da, hamı ona hörmətlə yanaşır, ehtiram göstərir, hər sözünə qoyi-qorusu əmal edirdilər. Buna səbəb isə Mirzağa Quluzadənin Azərbaycan ədəbiyyatşünaslığına göstərdiyi misilsiz xidmətlər idi.

Nizami, Nəsimi, Füzuli irsinin öyrənilməsində onun, müsiqisi xidmətləri olmuşdur. Onun dərəcə tavazkar, səmimi, səyişsah, sözünün üstündə duran, mərd və cəsarətli, toessübkeş və qeyrətli bir insan idi. Həmişə dili sazda və aydın olduğu qədər də yüksək elmi pəşəkarlıqla yazılmışdı. Bu gün onun haqqında söz demək, onu yaxşı sanmaq Tanrı qarşısında, ağsaqqal və müdriklər hüzurunda söz deməyə bənzəyirdi.

Mən birinci imtahandan çıxanda oyloşanlara öz mənzurələrimi bildirdim. Bu vaxt o mono bəzi tapşırıq verdi.

- Gələn imtahana yaxşı hazırlaş, Sov. İKP tarixi imtahanına Moskvadan gələcək-

vo M.C.Cəfərov içəri girdilər, sədrdən üzrxahlıq dilədiyində sonra Mirzağa müəllim olindo tutduğu kağzdan monim adımı oxudu, sonra sodrə rusca dedi ki, homin oğlana kömək etsinlər, o imtixnnna çox lazımdır. Sədr rus ləhcəsi ilə adımı oxuyanda mon ayağa qalxdım. Mirzağa müəllim mənə gülrüz kimi, "bo budur" gəldi dedi. Onlar gəndən sonra mon bilet çəkib bütün sualları bimofəssə danışdım. Olavo suallara da cavab verib ikinci "ala"nı aldım. Mon o gün bir daha Mirzağa müəllimin no qədər qayğıkeş, xeyirxah bir insan olduğunun şahidi oldum. Daha bir neçə gün keçdi, fars dilindən sonuncu imtahanın verib aspirantnaxa qəbul oldum. Prof. Mirzağa Quluzadə gəndərə olmaz qayğı göstərərək onlarını elmi-oloqal işlərino cəb olunmasına cidli yanaşardı. Elmi şurunun iclaslarında tez-tez iokrar edərdi: "Hörmətə müəllimimiz onlar dəvamı edəroccaklar, onları incitməyin, get-gələ salmayın, bir gəndən sonra qoyun bizi yaxşılar kimi yaşlı salənlər, rahumuza dua oxusunlar, onsuz da həyat çox qısadır. Bir bəni bir dünyadan heç no apərmayıb, yaxşı addan başqa"

Aspirantnaxmn ikinci kursunu bitirdiklə. Yay aylarn yaxılmışdı.Mon institutda sonuncu hafilələrində gəldi-gedirdim. 5-ci mərtəbədo ildkən çoxlu elmi katibin yanına gəldiyimi kı, bu sazi Mirzağa müəllimlə rastlaşdım. Mon gündə mn bil sevinən kimi oldu. Qoltuğundakı bir qalaq kağız bağla-

maşını sürücüsü Ağaməmmədə verək dedi:

-Sən düş, biz də gəlirik.Sonra mənim işlərimi xəbər aldı. Mən də çox sağ olun professor- deyib ayrılmaq istədim. O mənim qolumdan tutub gedək-dedi.

Biz aşağı düşəndə sürücü QAZ-21 maşının qapılarını açdı.Bu vaxt Mirzağa müəllim:

-Hə, oğlum otur gedək. Mən heç nə xəbər almadım. Bərk utandığımdan məni tər götürmüşdü. Köhnə Bakı universal mağazasının yanındakı 3 saylı binanın (Mən o lənətə gəlmiş ermənilərin adını çəkmək istəmirəm) II mərtəbəsinə qalxdıq.Qapını 60-65 yaşında olan bir qadın açdı.Bu vaxt Mirzağa müəllim muştuluq alırmış kimi sevincək dilləndi:

-Yaqut, gözün aydın, axır ki, oğlumuzu tapıb gətirdim. Qadın əvvəlcə əlini mənə uzatdı, sonra üzümdən öpdü və çox sağ ol, ay Mirzağa -dedi, bir az kövrələn kimi oldu. Biz içəri keçib əyləşəndən sonra Mirzağa müəllim mənim çaşıb qaldığımı görüb danışmağa başladı:

-Yaqut xanım Mirvarid Dilbazinin bacısıdır, yaxşı şeirlər, hekayələr yazır. Yeganə oğlumuz Vəfa Misirdə işləyir, anası onun üçün çox darıxır.Bir gün ona dedim ki, bir aspirantımız var, Vəfaya oxşayır. O da yalvar-yaxar elədi ki, onu evə gətir, qoy gəlib-getsin, bir az təskinlik tapaq. Mən də neçə aydır səni axtarıram. Bir dəfə Məmməd Cəfərə demişəm, görünür yadından çıxıb. Hə, indi çörəyimizdən kəs, tez-tez bizə gəl-get.

Yaqut xanım əsl bayram süfrəsi açmışdı. O da sevinirdi, hətta gülə-gülə dedi ki, oğlum bağışla bir az tələsik olduq... Stolun üstündə yarpaq dolması, kartofla qızardılmış kotlet və s. var idi. Mən heç nə danışa bilmirdim, Mirzağa müəllim stolun üstünə " Göy-göl " konyakı qoydu. Nə qədər utansam da bir qaşıq kartof və bir kotlet götürüb qoydum boşqabıma, konyakı isə açmağa qoymadım ki, guya mən "içən deyiləm". O çox yaxşı başa düşürdü ki, mən utanıb sıxılıram. Mən çörəyimi yeyib qalxdım, professordan icazə alıb dedim :

-Mirzağa müəllim, mənə icazə verin gedim, saat 2-də iclasımız var. O ayağa qalxıb məni yola salarkən dedi:

-Hə, oğlum, evimizi tanıdın, tez-tez gəl-get. Bizi tək qoyma.

Bu görüşdən sonra mən yeni ildə, Novruz bayramında bir neçə dəfə onlara gedib bayramlarını təbrik etdim.Sonra eşitdim oğlu Vəfa Misirdən qayıdıb gəlib, onu mühüm dövlət qulluğuna dəvət etmişdilər.

Mirzağa müəllim gənclərə qarşı çox həssas və qayğıkeş idi.Bir dəfə elmi katibimiz zəng vurdu ki, səbah İnstituta gəl. Məmməd Cəfər və Mirzağa müəllim səni görmək istəyirlər Mən səhərisi gün İnstituta gəlib elmi rəhbərim akad.M.C.Cəfərovun otağına girdim. O, məni görən kimi gülümsünüb dedi.

Səndən bir nəfər məktub yazıb, hansı jurnalda çıxan məqaləni oxuyub, deyir ki, ondan köçürmüsən. Mirzağa müəllim də məktubu yazıb mənim üstümə ki, ayırd edib ona məlumat verim. Bunu deyib o məktubu mənə uzatdı Məktub müəllifi göstərirdi ki,mən çap etdirdiyim məqalədə qoşmanın 11- hecalı olduğunu ondan " köçürmüsən" mənə iki il bundan qabaq verilən mövzu sən demə onun doktorluq dissertasiyasının mövzusu imiş və s.

Məmməd Cəfər müəllim məktubu məndən alıb dedi ki,direktor bizi gözləyir, məktub müəllifi də koridorda bizi gözləyirdi. Bayıra çıxanda mən həmin "müəllifi"gördüm, yaxşı tanıyırdım. Direktorun otağına girib əyləşdik. O hamımızla görüşdü, mənim kefimi xəbər aldı, sonra Məmməd Cəfər müəllimə sarı dönüb xəbər aldı.

-Nə yazır bizim bu müəllif,tanış olmusan?

Məmməd Cəfər müəllim rişxəndlə;

-Tanış oldum, Mirzağa müəllim, bu müəllif yazır ki, qoşmanın 11-hecalı olduğunu "ilk dəfə" o tapıb, bizim aspirantımız da məqaləsində onu qeyd edibmiş. Sonra da yazır ki, bu mövzu onun olub, nə üçünsə aspiranta veriblər.

Mirzağa müəllim üzünü ona çevirib:

-Aşıq Qurbani "Bənövşə" şeirini qoşanda ona da sən demişdin ki, hecanın 11-liyində yazsın?! Müəllif pərt oldu. Sonra Mirzağa müəllim bir də soruşdu:

-Bu mövzunu sənin adına nə vaxt təsdiq ediblər?

Həmin müəllif də cavab verdi ki, təsdiq olunmayıb, ancaq mən o mövzunu işləmək istəyirəm.

Bu vaxt Mirzağa müəllim güldü və ona:

-Buna görə də məktub yazdın?!

"Müəllif" qızarıb-pörtmüşdü. Dilləno bilmirdi. Bu vaxt Mirzağa müəllim:

-O mövzu sənə verilə bilməz. Qoşmanın 11-hecalı olduğunu dağda qoyun otaran çobandan soruşsan o sizdən yaxşı deyər. Gedə bilərsiniz.

O, Məmməd Cəfər müəllimlə bir qədər danışıb güldü, sonra birdən xəbər aldı:

-Bunun elmi məsləhətçisinin xəbəri var ki, bu "alim" belə hoqqabazlıq edir?

Məmməd Cəfər müəllim çiyinlərini çəkdi və sonra da:

-Deyə bilmərəm, - dedi

Mirzağa müəllim

-Ona deyin ki, bunlara nəzarət eləsin, başlı-başına buraxmayın

Biz direktorun kabinetindən çıxanda artıq günortaya az qalırdı.Mən,Məmməd Cəfər müəllimlə görüşüb ayrılanda o sakitcə dilləndi:

-Belə şeylərə əhəmiyyət vermə, get işlərinlə məşğul ol. Bu günlərdə prof.M.Quluzadənin 110-illik yubileyini keçirtdik. Mirzağa müəllimin nəslindən heç kim qalmayıb. Vəfa Quluzadənin oğlu bir neçə il bundan əvvəl maşın qəzasına düşüb çox gənc yaşında həlak oldu.Ondan bir-iki il sonra bu faciəyə dözməyən ata ürəyi əbədilik dayandı. Mirvarid Dilbazinin qızı Xatirə xanım mənim qonşumdur. Bir neçə il bundan qabaq prof.Mirzağa Quluzadə haqqında yazdığım məqaləni ona verdim ki, Vəfa müəllimə çatdırsın. Hər dəfə məni görəndə bu qonşu Xanım deyirdi ki, xalam oğlu telefonunu açmır... Daha xəbər almıram.

Prof.M.Quluzadənin parlaq xatirəsinə həsr etdiyim bu yazıları ona olan borcumu yerinə yetirmək naminə yazıram. Belə "borcu" olanlar isə çoxdur, onlarla, yüzlərlədir. Allah rəhmət eyləsin!

Ədəbiyyat.- 2018.- 20 yanvar.- S. 18- 19.